# Parisdə Rex kinoteatrında 2-ci "Kino İrsi" Beynəlxalq Film Festivalının açılışı olub

**Azərbaycanın Fransadakı səfirliyi və UNESCO yanında Daimi Nümayəndəliyin dəstəyi ilə Parisdə Rex kinoteatrında 2-ci "Kino İrsi" Beynəlxalq Film Festivalının açılış mərasimi keçirilib.**




Qırğızıstanın Fransadakı səfiri Sadıq Şer-Niyaz çıxış edərək festivalı açıq elan edib. Festivala verdiyi dəstəyə görə Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayevaya və UNESCO yanında daimi nümayəndə Elman Abdullayevə təşəkkürünü bildirib. O, festivalın iki ölkənin mədəniyyət və incəsənət sahəsində Parisdəki birgə fəaliyyətlərinin başlanğıcı olduğunu deyib. Birgə fəaliyyətin daha da dərinləşəcəyinə və davamlı olacağına inandığını qeyd edib. Festival hər il kinonun beşiyi olan Parisdə "AITYSH France" assosiasiyası tərəfindən təşkil olunur. Festivalın əsas məqsədi yeni reallıqlar və obrazları təqdim etmək, istedadları təbliğ etmək və filmləri dünya kino irsinə çevrilmiş kinorejissorların müstəsna dünyasına qayğı göstərmək, insanlardan və mədəniyyətlərdən bəhs edən filmləri nümayiş etdirmək, mədəniyyətlər və millətlər arasında dialoqu inkişaf etdirməkdir.

Festivalın prinsipi unikal kino dili ilə tolerantlıq, qarşılıqlı anlaşma, mehribanlıq, mədəni müxtəlifliyin və birliyin qorunması mesajı verməkdir.

Xatırladaq ki, festival çərçivəsində UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının dəstəyi ilə lentə alınmış "Xarıbülbül əfsanəsi" və "Odin kodu" adlı sənədli filmlər Parisdə Rex kinoteatrında nümayiş olunacaq.

Azərbaycan. - 2024.- 6 noyabr (№ 245).- S.11.